Bəxtiyar YUNİSOĞLU

# * Azərbaycanım

Müqəddəs varlığın sənsən Vətənim,
Anamsan, qayğımı sənsən çəkənim.
Azadlıq arzuma sənsən yetənim,
Mənim göz bəbəyim, ürəyim, canım,
Əbədi, müstəqil Azərbaycanım!

Naxçıvan, Qarabağ danılmaz obam,
Burda məskən salıb ulu türk babam.
Burda sönməz odum, soyumaz sobam,
Sənə göz dikənin gözündə yanım,
Əbədi, müstəqil Azərbaycanım!

Təbriz nisgilindir, Göyçə həsrətin,
Bitib-tükənməzdir zəngin sərvətin.
"Qara qızıl"ındır, sənin şöhrətin,
Olmasın bir günüm, sənsiz bir anım.
Əbədi, müstəqil Azərbaycanım!

Bakı baş şəhərim, fəxrim, qürurum,
Şamaxım, Qazağım, Gəncəm söz yurdum.
Xocalım, Laçınım, Şuşam öz yurdum,
Naftalan möcüzəm - dərdlər dərmanım,
Əbədi, müstəqil Azərbaycanım!

Nur payım Şəmkirim, Mingəçevirim,
Şəki, Daşkəsənim qartal şəhərim,
Kəlbəcər torpağı ləl-cəvahirim,
Astara, Lənkəran cənnət məkanım,
Əbədi, müstəqil Azərbaycanım!

Şahdağ vüqarımdır, and yerim Qoşqar,
Kür-Araz köksündə vüsala çatar.
Su üstə şəhərim - Xəzərdə axtar,
Haqqım var Göy-Gölü bənzərsiz sanım,
Əbədi, müstəqil Azərbaycanım!

Cahanın özü tək qədim, ulusan,
Könlüm hərarəti, gözüm nurusan,
Loğman təbiətli, şirin sulusan,
Sən mənim solmayan bir gülüstanım,
Əbədi, müstəqil Azərbaycanım!

Əzəmətli himnim, dilimiz, var ol!
Üçrəng, ay-ulduzlu bayrağım, var ol!
Od rəngli, sümbüllü gerbimiz var ol!
Şəhidlər qanıyla yazıb dastanım,
Nurlu sabahlara açılsın danım.
Əbədi, müstəqil Azərbaycanım!

Gəncə